# Azərbaycan-Pakistan iqtisadi əməkdaşlığının yeni səhifələri açılır

***Prezident İlham ƏLİYEV: "Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır"***

Prezident İlham Əliyevin keçən il iyulun 11-12-də Pakistan İslam Respublikasına dövlət səfəri, dost və qardaş ölkədə necə hərarətlə qarşılandığı yaddaşlarda xoş təəssüratlarla qalıb. Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana budəfəki dövlət səfəri son üç ildə ölkəmizə üçüncü səfəridir. Ali səviyyədə görüşlərin bu dinamikası Azərbaycan - Pakistan əlaqələrinə, o cümlədən iqtisadi əməkdaşlığın genişlənməsinə və gücləndirilməsinə böyük təkan verir.

Fevralın 24-də dövlətimizin başçısının və Pakistanın Baş nazirinin istər geniş tərkibdə görüşdə, istərsə də mətbuata bəyanatlarında iqtisadi əməkdaşlıq məsələləri əsas mövzulardan biri olub. Həmçinin Azərbaycan-Pakistan biznes-forumunun keçirilməsi bu əlaqələrin xüsusi önəm daşıdığından xəbər verir. Prezidentimizin geniş tərkibdə görüş zamanı dediyi sözlər də iqtisadi əməkdaşlığın vüsət aldığını göstərir: "Bu gün çox geniş iqtisadi gündəliyi razılaşdırdıq və iqtisadi əməkdaşlığımıza, eləcə də sərmayə imkanlarına aid praktiki layihələri müzakirə etdik. Azərbaycanın Pakistana sərmayələri ilə bağlı imzalanacaq sənədlərin bir ay ərzində hazırlanması məqsədilə artıq öz heyətlərimizə fəal çalışmaq təlimatlarını verdik. Mənim Pakistana dövlət səfərim zamanı rəsmən bəyan etdim ki, Azərbaycan Pakistanda müxtəlif layihələrə minimum 2 milyard dollar sərmayə yatırmağa hazırdır. Biz təxminən bu yaxınlarda həmin layihələrin siyahısını artıq almışıq və heyətlərimiz onları dəyərləndirir. Beləliklə, hər bir məsələni yekunlaşdırmaq və bizə hesabat vermək üçün qardaşımla birgə bir ay müddət veririk".

Azərbaycan Prezidentinin və Pakistanın Baş nazirinin iştirakı ilə imzalanmış sənədlərin mübadiləsi də göstərir ki, iki ölkə arasında iqtisadi əlaqələrin yeni səhifələri açılır. Müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinə yol açan həmin sənədlər sırasında enerji sahəsinə aid olanlar da diqqət çəkir. Belə ki, həmin gün Azərbaycan Respublikası



Dövlət Neft Şirkəti (SOCAR) ilə "Frontier Works Organisation" (FWO) və "Pakistan State Oil Company Limited" şirkəti arasında Anlaşma Memorandumu mübadilə edilib. SOCAR-la mübadilə edilən daha bir sənəd "Pakistan Refinery Limited" (PRL) və "Pakistan State Oil Company Limited" şirkəti ilə Anlaşma Memorandumudur.

"SOCAR Trading SA" ilə də sənədlər mübadilə edilib. Bunlar "Pakistan LNG Limited" arasında mayeləşdirilmiş təbii qaz yüklərinin alqı-satqısı ilə bağlı Çərçivə Sazişinə 1 nömrəli Əlavə, "Pakistan State Oil Company Limited" şirkəti ilə Anlaşma Memorandumu və "Pakistan State Oil Company Limited"lə neft məhsullarının uzunmüddətli alqı-satqı sazişidir.

Dövlətimizin başçısı bir daha vurğulayıb ki, Azərbaycanın Pakistan iqtisadiyyatına 2 milyard ABŞ dolları sərmayə yatırmaq planları var. Bir neçə ay əvvəl Pakistan tərəfindən konkret layihələr alınıb və Azərbaycan nümayəndələri onları hazırda qiymətləndirir. İndi də birlikdə çox mühüm, eyni zamanda çox real hədəflər müəyyən olunub. Hədəflənən layihələr infrastrukturun inkişafını, energetikanı, mədən işini və digər sahələri əhatə edir: "Bu gün imzalanmış razılaşmalar yalnız indicə gördüyümüz mərasimlə məhdudlaşmır. Bir çox sazişlər digər auditoriyalarda artıq imzalanmışdır. Beləliklə, cənab baş nazirin səfəri zamanı imzalanmış sazişlərin ümumi sayı 10-dan artıqdır. Bir sözlə, onlar gələcək əməkdaşlıq üçün yaxşı bünövrə yaradacaq. Sərmayə planlarımız əsasında, əminəm ki, biz ticari dövriyyəmizin artımını da görəcəyik".

Ticarət dövriyyəsinin artırılması məsələsinə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif də toxunaraq deyib: "Təəssüf olsun ki, bu gün ticarətimiz 14 milyon dollara bərabərdir və bu, qətiyyən bizim siyasi səviyyədə olan münasibətlərimizi əks etdirmir. Bu gün biz artıq bəyan edə bilərik ki, sərmayələri qısa bir zamanda 2 milyard dollar səviyyəsinə çatdıracağıq. Bu, sadəcə, bəyanat deyil. Məsələn, Pakistandan idxal olunan "Basmati" düyüsünə Azərbaycanda əziz qardaşımın tapşırığına əsasən, tətbiq edilən rüsum aradan qaldırılıbdır və əminəm ki, Azərbaycanda istehsal olunan müəyyən məhsullar var ki, biz də onların Pakistanda satışını təşviq edə bilərik. Biz tarifləri aşağı sala bilərik. Bizim kommersiya nazirimiz burada əyləşibdir.

Əlbəttə, maye qaz daha bir əmtəədir və bu məsələ də bizim ticarət gündəliyimizə daxil edilə bilər. Əlbəttə, JF-17 hərbi qırıcı təyyarəmiz var və Azərbaycanla Pakistan həmin təyyarə ilə bağlı fəal işlər aparır... Biz gündəlik əsasda səylərimizi səfərbər etsək, 2 milyard dollar həcmində ticarət dövriyyəsinə nail ola bilərik".

Qeyd edək ki, Azərbaycanın Ticarət Palatasının İslamabadda nümayəndəliyi təsis olunub. Bu da ikitərəfli ticarətin inkişaf etməsinə imkan verəcək amillərdəndir.

Müzakirə edilən digər mühüm sahə bağlantı və daşımalarla bağlı olub. Məlumdur ki, Azərbaycan "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin hər ikisində iştirak edir. Prezident İlham Əliyev qeyd edib ki, əlbəttə, bu, bağlantı və daşımaların, iqtisadi inkişafın, o cümlədən siyasi sabitliyin mühüm elementidir. Bir-birinə yaxın yerləşən ölkələr bu cür çoxtərəfli əməkdaşlıq formatında iştirak etdiyi zaman vəziyyət bizim regionlarda daha proqnozlaşdırılan olur. Bu, həmçinin regional sabitliyin mühüm meyarıdır.

Bir sözlə, iqtisadi əlaqələrimiz getdikcə daha çox sahələri əhatə edərək genişlənməkdədir. Əməkdaşlıq enerji və infrastruktur layihələrini, informasiya texnologiyalarını, əczaçılıq, tekstil və digər sahələri əhatə edir və həm bu, həm də digər sahələrdə əlaqələrin daha da güclənməsi üçün böyük potensial var. Ekologiya sahəsində də həmrəyik. Təsadüfi deyil ki, ölkəmizin yaşıllıq ekspertlərindən ibarət heyəti İslamabadın abadlaşdırılmasında çalışır və şəhərin yaşıllaşdırılmasında, eləcə landşaftla bağlı təqdirəlayiq işlər görür.

İqtisadi əməkdaşlığın genişləndirilməsinin, idxal-ixracın artmasının hər iki ölkəyə dividendlər gətirəcəyinə şübhə yoxdur. Lakin məsələnin mahiyyəti təkcə bundan ibarət deyil. Əlaqələr genişləndikcə xalqlarımız bir-birinə daha da yaxınlaşır, müxtəlif səviyyələrdə qarşılıqlı şəfərlər çoxalır, görüşlər intensivləşir. Dostluğumuz getdikcə möhkəmlənir və bu dostluğun daha yüksək zirvəyə çatacağına da inam böyükdür.

**«Azərbaycan»**

# Bu yerlərə yenidən həyat qayıdır

Qarabağ və Şərqi Zəngəzura yeni həyat qaytaran Prezident İlhan Əliyev mütəmadi olaraq o ərazilərə səfər edərək görülən işlərlə yaxından tanış olur, tapşırıqlarını verir, açılışlar edir, yeni təməllər qoyur. Qurucu Liderin yenidən bünövrəsini qoyduğu şəhər, qəsəbə və kəndlərə ardıcıl olaraq qayıdış köçləri yola salınır.

İndi keçmiş məcburi köçkünlərlə doğma yurdlarında görüşən Prezident İlham Əliyev onların qayıdış sevinclərini fərəhlə bölüşür. Vətən nisgili, torpaq həsrəti olmayan bu görüşlərdə yalnız yurda dönüş bəxtəvərliyindən qürurla bəhs olunur. Fevralın 19 da Xocalının Ballıca kəndinə köçən bir qrup sakinlə keçirilən görüşdə olduğu kimi.

Öttən ilin dekabrında başlanan qayıdışla Ballıca kəndinə artıq 460 nəfər öz doğma yurduna qayıdıb. Ballıcaya köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Qarabağa növbəti səfəri zamanı Ballıca kəndində həmin sakinlərlə görüşən və onlar üçün



yaradılan şəraitlə tanış olan ölkə rəhbəri ilə keçmiş məcburi köçkünlər arasında səmimi söhbət əsnasında duyğulu anlar yaşandı. Dədə-baba yurdlarından zorla qovulmuş, faciələrə tuş gəlmiş, məcburi köçkün kimi maddi-mənəvi əzablarla üzləşmiş bu sakinlər onları bu xoşbəxt günlərə qovuşdurduqlarına görə xilaskar lider İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür etdilər, sonsuz minnətdarlıqlarını bildirdilər. Sakinlərdən biri qəlbindən keçən hissləri bu sözlərlə dilə gətirdi: "Mən ürəyimdə deyirdim ki, ilahi, görəsən qismət olar ki, gedək Ballıcadan keçək. Vətənə baxaq...bu günləri bizlərə bəxş edən şəhidlərin ruhu qarşısında baş əyirəm."

Görüşdə Prezident bir daha vurğuladı ki, torpaqlarımızı işğalçılardan azad etmək bizim borcumuz, milli ideyamız idi: "Vətən həsrətilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir."

Artıq Azərbaycan bayrağının qürurla dalğalandığı Qarabağ və Şərqi Zəngəzurda həyat bərpa edilir. Əzəli sakinlər yurdlarına qovuşurlar. Bütün bu tarixi qələbələr isə Prezident İlham Əliyevin qətiyyəti, əzmi, xalqına, torpağına olan tükənməz sevgisi sayəsində qazanılıb.

Bu gün də ölkə başçısının tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində çalışanlarla birlikdə, ümumilikdə 40 minə yaxın insan yaşayır.

**«Qəbələ»**